

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 93 (23.980)

*20 may 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Vahid Kirişçinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib, əməkdaşlığımızın gündəliyində kənd təsərrüfatının mühüm yer tutduğu qeyd olunub.

Prezident İlham Əliyev ermənilər tərəfindən işğal dövründə ərazilərimizdə kənd təsərrüfatı ilə bağlı hər şeyin dağıdıldığını bildirib, işğaldan azad edilmiş ərazilərdə Türkiyə ilə kənd təsərrüfatı sahəsində sıx əməkdaşlıq və birgə fəaliyyətin həyata keçirildiyini məmnunluqla vurğulayıb.

Söhbət zamanı Bakıda keçirilən “Caspian Agro 2022” – Beynəlxalq Kənd Təsərrüfatı Sərgisinin əhəmiyyəti və Türkiyənin kənd təsərrüfatı və meşəçilik nazirinin başçılığı ilə nümayəndə heyətinin bu sərgidə iştirakının önəmi qeyd edilib, Türkiyə şirkətlərinin sərgidə geniş təmsil olunduqları bildirilib. Vahid Kirişçinin ölkəmizə səfərinin əməkdaşlığımızın genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

# “Naxçıvan Saray” kompleksi istifadəyə verilib



***“Biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq”***, – deyən ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, özəl bölməyə dövlət dəstəyi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər,



qəbul olunmuş Dövlət proqramları yeni istehsal və xidmət sahələri ilə yanaşı, həm də əlverişli investisiya mühiti yaratmışdır.

Mayın 19-da Naxçıvan şəhərində yeni xidmət kompleksi – “Naxçıvan Saray” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yeni xidmət kompleksində yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, “Naxçıvan Saray” Məhdud Məsuliyyətli Cəmiyyətinin sahəsi 10 min kvadratmetrdir. Zirzəmi qatı ilə birlikdə 7 mərtəbədən ibarət olan binada otel, şadlıq sarayı, ofis, restoran, mətbəx və avtopark fəaliyyət göstərəcəkdir. Zirzəmidə camaşırxana, işçi heyəti üçün 32 yerlik yeməkxana, 3 anbar, elektrik və digər köməkçi otaqlar yerləşir. Binada 5 mərtəbədən ibarət 538 yerlik avtopark vardır.

Dördüncü mərtəbədə 800 və 340 yerlik olmaqla, 2 şadlıq sarayı, həmçinin bu mərtəbədə mətbəx, 5 soyuducu kamera, 4 qarderob, iş və digər xidməti otaqlar yerləşir. Şadlıq saraylarında iclas və konfrans keçirmək üçün proyektor, kürsü və müasir səs sistemi quraşdırılmışdır.

Binanın beşinci mərtəbəsində 24 standart, 20 superior, 1 deluxe olmaqla, 45 otaqdan ibarət otel fəaliyyət göstərəcəkdir. Eyni zamanda burada iş otaqları və server, eləcə də 80 yerlik restoran vardır. Binada 4 sərnişin və 1 yük lifti quraşdırılmışdır. Burada kişi və qadınlar üçün idman zalları, istirahət mərkəzlərinin yaradılması da nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar, eləcə də dövlət dəstəyi nəticəsində özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilmişdir. Bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəticə-



sində ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada otel biznesinin dünya standartları səviyyəsində qurulması, qonaqların və turistlərin qəbulu üçün silsilə tədbirlər reallaşdırılır. Müasir otellərin istifadəyə verilməsi turizm sektorunun inkişafının dəstəklənməsinə,



otel biznesinin genişləndirilməsinə, turistlərin rahatlığının təmin olunmasına, yeni iş yerlərinin yaradılmasına və ümumi inkişafa verilən töhfədir. Bu istiqamətdə atılan addımlardan biri də Naxçıvan şəhərində istifadəyə verilən “Naxçıvan Saray” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Bu cür obyektlərin sayının çoxalması muxtar respublikanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, turistlərin yüksək səviyyədə qəbulu, nəqliyyat vasitələri istifadəçiləri üçün rahatlıq yaradacaqdır.

Əməkdaş Səbinə Alquliyeva demişdir: “Bu gün muxtar respublikada çoxsaylı turizm kompleksləri, otellər istifadəyə verilir. Bu xidmət sahələrinin açılması Ali Məclis Sədrinin diqqət və qayğısının növbəti nümunəsidir. Mən “Naxçıvan Saray” Məhdud Məsuliyyətli Cəmiyyətində gənc işçi olaraq çalışıram. Burada yüksək iş şəraiti yaradılmış, yüksək əməkhaqqı ilə təmin edilmişik. Bütün bunlara görə minnətdarlıq edirik”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvan Saray” Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması münasibətilə gələcək istifadəçiləri və kollektivi təbrik edərək demişdir: Bu gün muxtar respublikada xidmət sahəsində yeni bir ünvan – “Naxçıvan Saray” Məhdud Məsuliyyətli Cəmiyyəti istifadəyə verilir. Yeni

*Ardı 2-ci səhifədə*





xidmət sahələrinin yaradılması ölkəmizin mədəni inkişafının göstəricisidir. O ölkələrdə bu cür xidmətlər təşkil olunur ki, orada inkişaf, sabitlik, dövlət-xalq birliyi var və özəl bölmənin inkişafı üçün şəffaf şərait yaradılıb. Azərbaycanda da inkişaf və sabitlik var, ümummilli liderimizin yolu sədaqətlə davam etdirilir. Bütün bunların nəticəsidir ki, insanların yaşayış şəraiti yaxşılaşır, yeni iş yerləri açılır və turistlərə yüksək mədəni xidmət göstərilir.

Ali Məclisin Sədri "Naxçıvan Saray" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasında əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Bu xidmət obyekti xüsusi layihə əsasında qurulub. Tikinti işlərinə nəzarət olunmuş, layihənin düzgün yerinə yetirilməsinə dair mütəmadi tapşırıqlar verilmişdir. Nəticədə, muxtar respublika üçün müasir və hər cür şəraiti olan xidmət sahəsi yaradılmışdır. Burada təkcə otel və restoran deyil, ümumilikdə, hibrid xidmətlər təşkil olunub. Yəni muxtar respublikanın paytaxtı Naxçıvan şəhərinə gələn qonaqların, eyni zamanda yerli sakinlərin muxtar respublikadan kənara gedərkən avtomobillərini saxlamaları üçün burada qapalı avtopark qurulub. Eyni zamanda cəmiyyətin Naxçıvan şəhərindəki avtovağzala yaxın yerdə olması turistlərin uzağa getmədən otel və restoran xidmətlərindən istifadəsinə imkan verəcəkdir. Şadlıq saraylarından sakinlər və gələn qonaqlar istifadə edəcəkdir. Müasir dövrün tələbi insanlara müxtəlif xidmətləri bir yerdə göstərməkdən ibarətdir. Bu saray da bir neçə xidmətləri eyni vaxtda yerinə yetirəcəkdir. Gələcəkdə sarayda digər xidmət sahələri də yaradılacaq və kompleks formada fəaliyyət göstərəcəkdir. Bu da ilkin mərhələdə 63 nəfərin işlə təmin olunduğu kompleksdə əlavə iş yerlərinin açılmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Burada çalışanların əksəriyyəti gənclərdir. Bu da yaxşı haldır. Hazırda dünyada əsas diqqət yetirilən məsələlərdən biri də xidmət sahələrində çalışan kadrların hazırlanmasıdır. Bu gün Naxçıvanda xidmət sahələrində çalışanların əksəriyyəti müasir dövrün tələblərinə uyğun yetişən gənclərdir. Bu gün böyük vəsait sərf olunmuş "Naxçıvan Saray" Məhdud Məsuliyyətli Cəmiyyəti gənclərin ixtiyarına verilir. Onlar da buranın fəaliyyətinə və qorunmasına səy göstərməlidirlər.

Ali Məclisin Sədri yeni xidmət kompleksinin muxtar respublikanın həyatında önəmli yer tutacağına əminliyini bildirmiş, yaradılanların qorunması və qurulanlardan səmərəli istifadə olunması, cəmiyyətin tanıdılması və xidmətin təşkili barədə tapşırıqlar vermişdir.

Bina istilik və yanğınsöndürmə sistemləri ilə təchiz edilmiş, həmçinin müasir işıqlandırma, mərkəzi videonəzarət sistemi, transformator və generator quraşdırılmış, ərazi abadlaşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Atatürkü Anma, Gənclik və İdman Günü qeyd olunub

*Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunda Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə tədbir keçirilib. Əvvəlcə Azərbaycan və Türkiyənin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.*



Tədbirdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə təbriklərini çatdıraraq bildirib ki, Mustafa Kamal Atatürkün 103 il öncə mayın 19-da Samsunda yandırdığı istiqlal məşəli Ərzurumu, Sivası, Ankaranı, qarış-qarış bütün Anadolunu dolaşıb, böyük zəfəri və Cümhuriyyətin elanını mümkün edib. Azərbaycanla dostluq, qardaşlıq münasibətlərini hər zaman ön planda saxlayan Mustafa Kamal Atatürk "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir", – deyərək xalqlarımız arasındakı münasibəti tam şəkildə ifadə edib. Türkiyənin gücü Azərbaycanın gücüdür, Azərbaycanın gücü Türkiyənin gücüdür. Bu keçmişdə də belə idi, indi də belədir, sabah da belə olacaq.

Baş konsul "19 may mənim doğum günümdür", – deyən Mustafa Kamal Atatürkün və silahdaşlarının, şəhidlərin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçən övladların əziz xatirəsini ehtiramla yad edib, qazilərə şəfa diləyib, bayramı onlarla birgə qeyd etdikləri üçün muxtar respublikanın aid təşkilatlarının nümayəndələrinə, tədbir iştirakçılarına təşəkkürünü bildirib.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev əlamətdar gün münasibətilə qardaş türk xalqını təbrik edərək bildirib ki, tarixin bütün çətin anlarında Azərbaycan və Türkiyə bir-birlərinin yanında olublar. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində xalqımız bu dəstəyə bir daha şahidlik edib. Türkiyə cəmiyyətinin bütün təbəqələri kimi, Türkiyə gəncləri də Azərbaycana birmənalı şəkildə dəstək verib, bütün platformalarda, sosial şəbəkələrdə Azərbaycanın haqlı səsinin bütün dünyaya çatdırılmasında fəal iştirak edib. Azərbaycan-türk gənclərinin birgə iştirakı ilə keçirilən tədbirlərdən biri də ötən il Naxçıvanın ev sahibliyi etdiyi, 44 günlük Vətən müharibəsindən sonra iki ölkə gəncliyini bir araya gətirən 1-ci Beynəlxalq Zəfər düşərgəsi olub. Düşərgədə Türkiyənin və Azərbaycanın bütün bölgələrindən 250-dən artıq gənc 5 gün müddətində müxtəlif tədbirlərdə iştirak edib. Eyni zamanda ötən il düşərgənin ikinci mərhələsi Türkiyənin Qaziantep şəhərində baş tutub, bu düşərgədə də 200-ə yaxın gənc iştirak edib.



Vurğulanıb ki, bu gün Naxçıvan Muxtar Respublikasında 1000-dən artıq türkiyəli gənc müxtəlif ixtisaslar üzrə bakalavr və magistr təhsili alır, burada hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar. Əminliklə demək olar ki, həmin tələbələr üçün Naxçıvan onların ikinci evi kimidir.

Naxçıvan Dövlət Universitetinin xarici tələbələrlə iş üzrə dekanı Ceyran Quliyeva çıxışında muxtar respublikada, o cümlədən də universitetdə türkiyəli tələbələr üçün yaradılan hərtərəfli şəraitdən söhbət açıb, Atatürkü Anma, Gənclik və İdman Günü münasibətilə təbriklərini çatdırıb.

Sonra Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin, Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin ifasında vətənpərvərlik mövzusunda bir-birindən maraqlı mahnılar səsləndirilib, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin şagirdi "Azərbaycan-Türkiyə" adlı şeir söyləyib.

**✍ Nail ƏSGƏROV**

## "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası beynəlxalq səriştəlilik sınağında yüksək nəticə əldə edib



Muxtar respublikada ərzaq məhsullarının keyfiyyəti daim diqqət mərkəzində saxlanılır. Bu işlərin davamı olaraq laboratoriyanın beynəlxalq akkreditasiyadan keçirilməsi təmin edilmişdir. Belə ki, "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasının İSO17025 standartı üzrə beynəlxalq akkreditasiyası məqsədilə Latviyanın "LATAK" Milli Akkreditasiya Bürosu ilə əlaqələr yaradılmış və 14 noyabr 2013-cü il tarixdə müqavilə bağlanması təmin olunmuşdur.

LATAK akkreditasiya orqanının müvafiq qərarına əsasən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin Mərkəzi Qida Sınaq Laboratoriyası LATAK–T-492-00-2014 nömrəsi ilə qeydiyyata alınmış və İSO 17025 standartı üzrə akkreditasiyası başa çatdırılmışdır.

Ötən dövr ərzində "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-yə Latviya Milli Akkreditasiya Bürosu (LATAK) tərəfindən 2017-ci ildə qüvvədəolma müddəti 27 yanvar 2023-cü ilə qədər olan beynəlxalq sertifikat təqdim olunmuş və hər il akkreditasiya orqanının ekspertləri tərəfindən Mərkəzi Qida Sınaq Laboratoriyasının fəaliyyəti yoxlanılmış və laboratoriyanın beynəlxalq akkreditasiya sahəsindəki fəaliyyəti müsbət qiymətləndirilmişdir.

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin nəzdində fəaliyyət göstərən Mərkəzi Qida Sınaq Laboratoriyası mütəmadi olaraq peşəkarlıq sınaqlarına cəlb edilir. Aparılan sınaq nəticələrinin düzgünlüyünün və etibarlılığının təmin olunması, həmçinin işçi heyətin səriştəliliyinin artırılması məqsədilə laboratoriya beynəlxalq laboratoriyalararası səriştəlilik sınaqlarında iştirak edir.





Həmin tədbirlər çərçivəsində bu il fevralın 22-də Polşa Respublikasının "LGC Standards Sp. Z o.o." şirkəti ilə bağlanmış müqaviləyə əsasən laboratoriya içməli su məhsulu üzrə beynəlxalq laboratoriyalararası səriştəlilik sınağına qatılmışdır.

İstehsalı Böyük Britaniyada həyata keçirilən içməli su nümunəsində 5 mikrobioloji göstərici üzrə laboratoriya təhlilləri aparılmışdır. Müayinəsi aparılmış ümumi aerobların sayı 22$^{0}$C-də, ümumi aerobların sayı 37$^{0}$C-də, escherichia coli mikroorqanizmləri, coliformlar və enterococci (faecal streptococci) göstəricilər beynəlxalq standartların tələbləri əsasında yoxlanılmışdır. Nəticələr qiymətləndirilmə üçün Polşa Respublikasının "LGC Standards Sp. Z o.o." şirkətinin portal hesabına yüklənilmişdir. Şirkət tərəfindən nəticələrin əsas, fərdi, performans və analitik hesabatları hazırlanaraq laboratoriyaya təqdim edilmişdir. Dünyanın müxtəlif ölkələrindən, ümumilikdə, 309 laboratoriyanın iştirak etdiyi WT 311 saylı içməli suyun mikrobioloji raundunda, Mərkəzi Qida Sınaq Laboratoriyası 5 göstəricinin hər biri üzrə yüksək nəticələr əldə edərək sınaqları uğurla başa vurmuşdur.

Mərkəzi Qida Sınaq Laboratoriyası növbəti dəfə süd məhsulları üzrə beynəlxalq laboratoriyalararası səriştəlilik sınaqlarında iştirak edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

Turizm

# Naxçıvan-Dırnıs turizm marşrutu

***Hər il yeni turizm mövsümü başladıqca insanlar ənənəvi olaraq builki səyahətlərini harada və necə keçirəcəyini planlaşdırmağa başlayır. Bu baxımdan stresdən uzaq yaşayıb, mənalı istirahət keçirmək hamının arzusu olduğu kimi, daha yeni və kəşf edilməmiş turizm marşrutlarının da öyrənilməsi həm turistlərin, həm də turizmin inkişafına maraqlı olan hər kəsi düşündürən məsələlərdəndir. Zəngin turizm potensialı olan Naxçıvan Muxtar Respublikasında yeni turizm marşrutlarının işlənib hazırlanması, onların tanıtımı və bu istiqamətdə turların təşkili regiona xas turizm məhsulunun xüsusi çəkisinin artmasına imkan yaradır. Ordubadın dilbər guşələrindən biri olan Dırnıs kəndi istiqamətində səyahətə çıxanlar üçün Naxçıvan-Dırnıs turizm marşrutu barədə təəssüratlar, bu mənada, oxucularımız və həvəskar turistlər üçün də maraqlı olardı.***



Dırnıs Ordubadın Vənəndçay hövzəsi boyunca yerləşən böyük yaşayış məntəqələrindən biridir. Naxçıvan şəhərindən, təxminən, 90, Naxçıvan-Ordubad magistral yolundan isə 25 kilometr məsafədə şimal-şərq istiqamətində yerləşən Dırnısa çatmaq üçün turistlər Dəstəbaşından bu kənd istiqamətində yeni salınmış yolla irəliləyərək Ağrı, Dizə, Vənənd, Vələver, Başkənd, Qoruqlar, Anaqut kəndlərindən keçməklə gələ bilərlər. Dırnısdan sonra isə bu gün adı, demək olar ki, yaxın bölgəmizdə hamıya yaxşı tanış olan Zəngəzur dağlarınadək uzanan yolda Kələki, Unus və Pəzməri kəndlərinədək gedib çatmaq mümkündür. Əgər bütün bunları, sadəcə, bir tanışlıq kimi görmək istəyənlər varsa, birgünlük ekskursiya kifayət edər. Ancaq, xüsusən yazın bu gözəl vaxtında və qarşıdakı isti yay günlərində Dırnısa yolunuz düşsə, azı bir həftə bu kəndin təbii gözəlliklərindən doyunca təəssürat qazanmaq üçün yaxşı fürsət yaranacaq. Naxçıvandan Dırnısa qədər uzanan təbii və insan əli ilə yaradılmış gözəlliklər bu təəssüratları daha da zənginləşdirəcək.

Dırnıs təbiətsevər turistlər üçün olduqca əlçatan mövqedə olub, Naxçıvan şəhərindən cəmisi birsaatlıq yol məsafəsindədir. Kəndə, ümumiyyətlə, Ordubad istiqamətinə ilk dəfə səyahət edən turistlər üçün isə yol boyunca insanın gözünü doyu-



racaq çox gözəl mənzərələr vardır. Naxçıvanın simvolu sayılan vüqarlı Haçadağı müxtəlif rakurslardan izləmək, Xan Arazı ilk dəfə bu qədər yaxından görə bilmək və uzaqdakı Zəngəzur silsiləsinin açıq panoramı fonunda onu sanki daha yaxından göstərən çılpaq dağların ahəngdar düzülüşünü seyr etmək üçün belə səfərlər ilin istənilən fəslində ən yaxşı fürsətdir. Odur ki, Dırnısa bir an öncə çatmaq üçün tələsmək yerinə qarşıdakı yolun hər bir kilometrinin rəngli hekayəsini dinləmək üçün dördgöz olub, yola yaxşı bələdçilik edə biləcək həmsöhbətə qulaq verməyin faydası vardır.

Dırnıs dəniz səviyyəsindən, təxminən, 1500 metr yüksəklikdə olub kəndi əhatə edən Carbaş, Sarıdağ, Səhəngdağla əhatələnir. Dırnısa çatdıqda, uzaqdan Naxçıvanın getdikcə populyarlıq qazanan digər bir turizm destinasiyası olan Pəzməri şəlaləsi istiqamətində açıq görünən Zəngəzur silsiləsinin sərt sıldırımı cənub yamacları isə, sözün əsl mənasında, bu yerləri ilk dəfə görən insanlar üçün nağıllardakı qeyri-adiliyi xatırladır. İlk baxışda adama elə gəlir ki, bu zəhmli dağlara bərabər buradakı hər şey – şimşəyə hamilə yağmur buludları, quşlar, ağaclar, otlar, çiçəklər sanki gizli bir tərs cazibənin gücü ilə havada asılı qalıb, ona çatmaq istəyənlərdən qaçaraq uzaqlaşır. Ancaq Dırnısa çatıb, buradakı sərinsulu bulaqların birindən bir ovuc su içəndən sonra



insan bir anda bu şirin nağıldan gerçək həyat hekayəsinə qovuşur: özünəməxsus Ordubad qonaqpərvərliyi!

Dırnısa gəlmiş turistlər üçün darıxmağa heç bir əsas yoxdur. Bu fikir istər birgünlük gəzinti-istirahət, istər həftəsonu keçirmək, istərsə də bir və ya bir neçə həftəlik ailəliklə qalıb dincəlmək istəyənlər üçün belədir. Dırnısla yaxından tanış olduqda burada hələ sovet dönəmində məktəbli düşərgələri, yəni indiki turizm termini ilə desək, kamp turizmi mövcud olub. Hər cür meyvə ağaclarının bar verdiyi terrasvarı bağçalar, təmiz həyətlər, abad kəndarası yollar, hər məhəllədəki qaynayan çeşmələr buraya mənalı istirahət üçün gəlmiş insanların seçim imkanlarını artırır. Seçim üçün isə, necə deyərlər, səbəb də çoxdur. Turist tələbatı sonsuz olsa da, şəhərin bürkülü istisindən cəmi bir saat sonra yamyaşıl sərinliyə qovuşub məst olanlar üçün buradakı hər kiçik bağça, hər bulaq başı, hər ağac kölgəsi bir seçimdir. Kəndin həm yayda, həm də qışda mülayim olan oksigenlə zəngin havası, iti axan Vənəndçayın şırıltısı, bu yerləri elə sakinləri qədər sevən quşların bahar nəğməsi və insanların gülərüzlüyü bu kəndi seçənləri ürəkdən məmnun edir. Ticarətdə çox usta olan digər ordubadlılar kimi elə dırnıslılar da belə cazibə elementlərini iqtisadi fürsətə çevirməyi yaxşı bacarırlar.

Dırnıs müasir Naxçıvan kəndidir. Təxminən, 2 min nəfər sakini olan bu kənddə sosial həyat üçün zəruri olan bütün müasir şərait yaradılmışdır. 2021-ci il dekabr ayının 3-də müasirliyə qovuşmuş bu kənddə aparılmış müasir quruculuq tədbirləri sayəsində həm yerli əhalinin, həm də buraya gələn qonaqların sosial-mədəni tələbatlarının müasir standartlar səviyyəsində ödənilməsinə imkanlar yaradılmışdır. 2019-cu il dekabrın 4-də istifadəyə verilmiş Allahşükür məscidi isə təkcə Dırnısda və ya Ordubadda deyil, bütün Naxçıvanda dini dəyərlərə göstərilən qayğının nümunəsidir. Odur ki, Dırnısa kənar yerlərdən gələn hər bir qonaq burada keçmişlə müasirliyin vəhdətini yaşamaqla Naxçıvanın son onilliklərdə keçdiyi inkişaf yolunun qısa xülasəsini də görmüş olur.

Bir çox Ordubad kəndləri kimi, Dırnısın da özünəməxsus xüsusiyyətləri vardır. Burada yerli sakinlərin adət-ənənələrimizə, milli mətbux nümunələrinə bağlılığı qorunub saxlanılmaqdadır. Kəndə gələn qonaqların qarşılanıb onlara süfrə hazırlaması, Novruz bayramı zamanı yerli nümunələr maraqla qarşılanır. Kəndli fermerlərin istehsal etdiyi orqanik qida məhsullarının keyfiyyətinə isə söz ola bilməz. Mövsümdə yetişən Dırnıs meyvələri, bostan məhsulları şəhərli qonaqların dadından doymadığı yerli nemətlərdəndir. Dırnıs balı, ağartı məhsullarını isə burada, yerindəcə almaq həm turistlərə, həm də yerli sakinlərə iqtisadi cəhətdən sərfəlidir. Asudə vaxt keçirilməsinə gəldikdə isə Dırnıs bağlarının sakit guşələri, kəndin mərkəzindəki yaşı 300 ilə çatan qocaman çinar, Xıdırbulağı, Dərəbulağının dupduru çeşmələri, Ağamməd dərəsindəki müalicəvi Şorsu ilə tanışlıq, eləcə də kəndi dövrələyən dağ zirvələrinə yürüş bu kənddə keçirilən hər günü mənalı edir. Elə turizmdən yaxşı qazanc əldə etməyi bacaran ordubadlı kəndlilər də bu işə həvəslə yanaşırlar. Belə ki, Dırnısla bitişik olan Anaqut kəndinin girəcəyində yeni yaradılan müasir "Xan Çinar" İstirahət Mərkəzi eyni anda yüzdən artıq turistə mədəni xidmət göstərmək imkanına malik olacaq. Dırnıs bağlarındakı kölgəliklərdə isə çox da baha olmayan qiymətə şəhərli turistlər həftə sonlarını keçirə bilər, istəsələr, böyük villatipli evlərdə otaq da kirayə edib, daha geniş, daha yaddaqalan bir kənd təəssüratı qazana bilərlər. Belə abad ev və həyətlər isə Dırnısda xeyli saydadır.

*Dırnıs gələcəkdə turizm potensialı daha böyük olacaq bir kənddir. Ordubadın bu kənd istiqamətindəki turizm cazibə elementlərinin tədqiqi, onların turizm marşrutlarında istifadəsi məqsədilə mövcud şəraitin tanıdılması üçün daha çox reklam və təbliğat işinə ehtiyac vardır. Çünki turizm yayılıb genişləndikcə daha çox sərfəli layihələr üçün yeni fürsətlər yaranır. Belə müsbət təcrübə isə Naxçıvanda artıq var.*

✍ **Əli CABBAROV**

# Tələbələrin əl işlərindən ibarət sərgi keçirilib

*Naxçıvan Müəllimlər İnstitutunda yaradılmış texnologiya emalatxanaları ilə tanışlıq və Texnologiya müəllimliyi ixtisası tələbələrinin əl işlərindən ibarət sərgi keçirilib.*

Sərgini giriş sözü ilə açan institutun rektoru Azad Novruzov qeyd edib ki, institutda kadr hazırlığı aparılan ixtisasların tədris maddi-texniki bazası hər il gücləndirilir. İxtisaslı kadrların peşə bacarıqlarına yiyələnmələri üçün praktik vərdişlərin formalaşdırılmasında institutun mövcud tədris maddi-texniki bazası əsaslı rola malikdir. Sevindirici haldır ki, yeni açılmış Texnologiya ixtisası üzrə tədris emalatxanaları qısa zaman ərzində töhfə verməyə başlayıb. İnstitutun Texnologiya müəllimliyi ixtisası tələbələrinin əl işlərindən ibarət sərginin keçirilməsi bunun əyani nümunəsidir. Hazırda bu ixtisasda I və II kurs olmaqla, 28 tələbə təhsil alır. İnstitutda tələbələrin tədris prosesində praktik bacarıqlarının formalaşmasına xidmət edən Texnologiyanın tədrisi metodikası kabinəsi, Tikiş emalatxanası, Ağac emal edən emalatxana və bu emalatxanalarda hazırda tikiş maşınları, tələb olunan əl avadanlıqları mövcuddur. Yaxın gələcəkdə tələbələr üçün daha geniş imkanların yaradılması məqsədilə emalatxanaların yeni filiallarının açılması və yeni dəzgah-



ların sifarişi nəzərdə tutulub.

Tədris prosesində texnologiya emalatxanasında yüksək göstəricilərinə görə fərqlənən bir qrup tələbəyə Tərifnamə təqdim olunduqdan sonra emalatxanalara və sərgiyə baxış olub. Sərgidə ağac, metal, keramika, şüşə, plastik, kağız, karton və digər məmulatlardan hazırlanmış 100-dən artıq əl işi nümunələri nümayiş edilib. Yaradılan şəraitlə və sərgi ilə yaxından tanış olanlar maraqlı nümunələri yüksək qiymətləndirib, onların əhəmiyyətindən bəhs ediblər.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

# Rabitə infrastrukturu yenidən qurulur



*Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar bütün sahələrin dinamik inkişafı ilə nəticələnib. Həyata keçirilən tədbirlər rabitə sahəsinin inkişafına da əsaslı zəmin yaratmaqla, informasiya-kommunikasiya sisteminin əhatə dairəsinin genişləndirilməsi, yüksəkkeyfiyyətli rabitə və internet xidmətlərinin göstərilməsi istiqamətində müvafiq işlər görülür.*

Sakinlərə göstərilən rabitə və internet xidmətlərinin keyfiyyətinin artırılması üçün yeni texnologiyalar tətbiq edilir, telekommunikasiya şəbəkəsi yenidən qurularaq müasirləşdirilir. Belə ki, Ordubad rayonunu da əhatə edən genişmiqyaslı quruculuq tədbirlərindən Pəzməri kəndinə də pay düşüb. Kənddə rabitə xətt təsərrüfatı yenidən qurulur. Hazırda yeni qurulan Pəzməri kənd avtomobil yolunun kənarındakı taxta rabitə dirəklərin yerinə metal dirəklər basdırılır, Unus-Pəzməri kəndləri arasında yeni fiber-optik xətlər çəkilir, yeni paylayıcı şkaf quraşdırılır, istismara yararsız rabitə xətləri yeni xətlərlə əvəz edilir, yeni abonent qutuları əlavə olunmaqla rabitə xətlərində olan digər nasazlıqlar aşkar edilərək bərpa olunur. Kənddə aparılan abadlıq-quruculuq işləri çərçivəsində yeni inşa edilən qurumlara yeni rabitə xətləri çəkilir, 96 nömrə tutumlu yeni nəsil Avtomat Telefon Stansiyasının quraşdırılması istiqamətində müvafiq işlər görülür. Yeni nəsil telekommunikasiya sistemi istifadəçilərə telefon rabitəsi ilə yanaşı, ən müasir multimedia xidmətləri, yüksəksürətli internet, həmçinin çoxlu sayda servis xidmətləri təqdim edəcəkdir.

Görülən kompleks işlər, müasir avadanlıqların quraşdırılması nəticəsində kənd sakinləri keyfiyyətli rabitə və internet xidmətləri ilə təmin olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada zoonoz infeksiyalara qarşı əks-epidemik tədbirlərin vəziyyəti ilə bağlı monitorinqlər yekunlaşıb

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin 2022-ci ilin I yarım ilinin iş planına uyğun olaraq fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası məqsədilə Naxçıvan Muxtar Respublika Dövlət Baytarlıq Xidməti ilə birgə muxtar respublikanın rayonlarında zoonoz xəstəliklərə qarşı əks-epidemik tədbirlərin vəziyyətinin yoxlanılması ilə əlaqədar monitorinqlər aparılıb. Məqsəd muxtar respublikada iri və xırdabuynuzlu heyvanların bruselyoz, qarayara kimi təhlükəli xəstəliklərə qarşı yoxlanılması, vaxtında profilaktik peyvəndlərin aparılması, istehsalat sahəsində və texniki emal müəssisələrində, mövsümi zoonoz infeksiyaların yayılma təhlükəsi olan ərazilərdə, o cümlədən köçəri quşların başqa ölkələrdən qayıdarkən çoxluq təşkil etdiyi ərazilərdə sanitar-baytarlıq tədbirlərinin həyata keçirilməsi olub.

Monitorinqin aparılması üçün Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini – Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mənsimovanın sədrliyi ilə Səhiyyə Nazirliyinin Sanitar-Epidemioloji Nəzarət Sektorunun və Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşlarından ibarət komissiya yaradılıb. Komissiya muxtar respublikada zoonoz infeksiyalara qarşı aparılan profilaktik tədbirlərin icra vəziyyəti və bu sahədə görülən işlərlə tanış olub.

Yoxlamaların gedişində rayonlarda fəaliyyət göstərən ət satışı mağazalarına baxış keçirilib, sanitar-gigiyenik və sanitar baytarlıq tədbirlərinin həyata keçirilməsi istiqamətində görülən işlər yoxlanılıb, sahibkarlara aşkar olunmuş nöqsanların aradan qaldırılması ilə bağlı tələblər verilib.

Aparılan monitorinqlər zamanı Babək, Culfa, Sədərək, Kəngərli, Şahbuz və Şərur rayonlarında zoonoz infeksiyalara qarşı aparılan əks-epidemik tədbirlərin düzgün şəkildə aparılması qeyd edilib. Ordubad rayonunda rast gəlinən nöqsanlarla bağlı isə sahibkarlara mövcud vəziyyətin aradan qaldırılması və lazımi tədbirlərin görülməsi istiqamətində tapşırıqlar verilib.

Bütün bunlarla yanaşı, muxtar respublika ərazisində kəsilən iri və kiçikbuynuzlu heyvanların ətinin satışdan əvvəl baytarlıq orqanları tərəfindən qarayara xəstəliyinə qarşı yoxlanması, sağlam mal-qara cəmdəklərinin baytarlıq işçiləri tərəfindən möhürlənməsi də mütəmadi olaraq təmin olunur.

Bu sahədə aparılan tədbirlərin bariz nümunəsidir ki, bu günə qədərki yoxlamalarda muxtar respublika ərazisində bruselyoz xəstəliyi kəskin azalıb, qarayara xəstəliyinə isə rast gəlinməyib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Nəqliyyat sahəsində yeni layihələr uğurla tətbiq edilir

*Müasir sosial həyatı taksisiz, bu xidmət növü olmadan təsəvvür etmək mümkün deyil. Xüsusən də hər hansı bir yerə tələsəndə ünvana vaxtında çatmaq üçün taksi xidmətindən istifadə etməli oluruq. Təqdirəlayiq haldır ki, bu sahədə operativliyin təmin edilməsi istiqamətində son dövrlərdə muxtar respublikamızda reallaşdırılan layihələr geniş müştəri məmnunluğu yaradıb. Hazırda 23-ü "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsinə, 5-i "Aeroport Taksi" Məhdud Məsuliyyətli Cəmiyyətinə, 473-ü isə fiziki şəxslərə məxsus olmaqla, ümumilikdə, 501 taksi sərnişindaşıma fəaliyyəti göstərir.*



Ötən dövrdə Naxçıvan Muxtar Respublikasında taksi fəaliyyətinin müasir standartlara uyğunlaşdırılması sahəsində böyük nailiyyətlər əldə olunub. Taksi fəaliyyəti göstərən avtomobillər üçün vahid dizayn müəyyən edilməsi, taksi sürücülərinin vahid geyim forması ilə təmin olunması, sürücülərin zahiri görkəminə, avtomobillərin təmizliyinə və texniki vəziyyətinə nəzarətin artırılması bu baxımdan, xüsusilə diqqətəlayiqdir. Bu işlərin davamı olaraq muxtar respublika rəhbərinin tapşırığına əsasən əhaliyə göstərilən taksi ilə sərnişindaşıma xidməti səviyyəsinin yüksəldilməsi, eləcə də operativ və keyfiyyətli fəaliyyətin təmin edilməsi məqsədilə innovasiyaya əsaslanan elektron taksi xidməti yaradılıb. Müştərilər əlavə vaxt itirmədən sərfəli qiymətə və rahat şəkildə bütün telefon operatorlarından *288* qısa nömrəsinə zəng etməklə, həmçinin mobil tətbiq vasitəsilə taksi sifariş edə bilirlər.

Elektron taksi xidməti operativlik və dəqiqlik tələb edən xidmət sahəsidir. Proqram vasitəsilə sifarişin dəyərinin avtomatik hesablanması, sifarişlərin sürücülər arasında paylanması, tariflərin rahat tənzimlənməsi, sürücü sərnişin arasında şəffaflığın təmin olunmasına şərait yaradır və sərnişinin etibarlı şəkildə son məntəqəyə çatdırılmasını təmin edir. Elektron taksi xidməti tez bir zamanda əhalinin marağına səbəb olub, ətrafına kifayət qədər sərnişin yığa bilib. Ötən müddət ərzində elektron taksi xidmətinin fəaliyyətində yenilik olub, sərnişinlərə kuryer xidməti göstərilməsi təşkil edilib.



Muxtar respublikamızda turizmin inkişafına göstərilən diqqət, istirahət mərkəzlərinə əhalinin tələbatının artması elektron taksi xidmətinin tərkibində yeni xidmət növlərinin yaradılması zərurətini ortaya çıxarıb. Məhz bu məqsədlə ötən günlərdə elektron taksi xidmətinin tərkibinə verilən minivan (7+1 və 8+1) və mikroavtobusla sifarişlə xidmət sahəsi yaradılıb. Bu xidmət sahələrində fəaliyyət göstərmək üçün müasir standartlara cavab verən nəqliyyat vasitələri seçilib, tarif qiymətləri müəyyən edilib və sistemə işlənib. Kollektiv şəklində olan sərnişinlər *288* nömrəsinə zəng etməklə istər turizm, istərsə də hər hansı bir tədbir üçün daha uyğun qiymətə və etibarlı şəkildə bu xidmət növündən istifadə edə bilərlər. Bu xidmət növlərinin istifadəyə verilməsi, turistlərin istənilən vaxt müasirtipli nəqliyyat vasitələri ilə təmin olunmasına imkan yaratmaqla muxtar respublikamızda turizmin inkişafına səbəb olacaq.

Elektron taksi xidmətinin tərkibinə verilən minivan (7+1 və 8+1) və mikroavtobusla sifarişlə xidmət sahəsində işlə təmin olunan sürücülər adından Elvin Mahmudov, Nəriman Həsənov dövlətimizin yaratdığı əlverişli şəraitə görə minnətdarlıq edərək bildirir ki, əvvəllər müştəri sarıdan xeyli əziyyət çəkməli olurdular. Ay ərzində ən çoxu iki, ya da üç dəfə fəaliyyət göstərirdilər ki, bu da işə maraqlarını xeyli azaltmışdı. Lakin yeni xidmət sahəsi onlar üçün geniş imkanlar açıb. Minivan və mikroavtobusların fəaliyyət göstərdiyi bu xidmət sahəsi həm sürücü, həm də sərnişinlər üçün əlverişlidir. Belə ki, insanlar 288 elektron taksi xidmətinə müraciət etməklə ailəvi və yaxud qrup halında uzaq məsafələrə rahat şəkildə üz tuta bilərlər. Bu xidməti göstərən sürücü sona qədər müştəriləri müşayiət edir ki, bu da gediş-gəlişdə keyfiyyətin artmasına səbəb olmaqla yanaşı, həm də zaman itkisini aradan qaldırır.

✍ **Nail ƏSGƏROV**

## "Heydər Əliyev kuboku" uğrunda basketbol turniri başa çatıb



*Ümummilli liderin anadan olmasının 99-cu ildönümünə həsr olunan muxtar respublika turniri Naxçıvan Dövlət Universitetinin İdman Kompleksində keçirilib.*

İki gün davam edən yarış ümumtəhsil müəssisələrinin basketbol idman klublarını əhatə edib. 8 komandanın mübarizəsində qalib və mükafatçılar olimpiya sistemi əsasında müəyyənləşib. Gənclər və İdman, Təhsil nazirlikləri ilə Basketbol Federasiyası tərəfindən birgə təşkil olunan turnirin rəsmi açılış mərasimində milli musiqi və rəqs nümunələrindən ibarət konsert proqramı təşkil olunub. Sonra final görüşünə start verilib. Həlledici matçda "Ordubad"ı 31:15 hesabı ilə məğlub edən "Naxçıvan" əsas mükafata sahib çıxıb. Ordubadlılar ikinci olublar. "Şərur" isə yarışı üçüncü sırada tamamlayıb.

Mükafatlandırmadan öncə gənclər və idman naziri Ramil Hacı və federasiya sədri Elbrus İsayev çıxış edərək ümummilli lider Heydər Əliyevin ölkə idmanının inkişafı yolundakı əvəzsiz xidmətlərindən bəhs edib, dahi şəxsiyyətin idmançılara daim himayədarlıqla, qayğı ilə yanaşdığını diqqətə çatdırıb. Qeyd edilib ki, Naxçıvan basketbolunun inkişafı istiqamətində də məqsədyönlü addımlar atılır. Hakim və məşqçi hazırlığı, idmançıların təcrübə artımı və beynəlxalq əlaqələrin genişləndirilməsinə diqqət yetirilir.

Çıxışlarda muxtar respublikada gənclərin hərtərəfli inkişafı və idmana göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq ifadə olunub.

Ardınca ilk üçlükdə qərarlaşan komandalar və üzvləri diplom və hədiyyələrlə təltif ediliblər. Turnirin əsas mükafatı – "Heydər Əliyev kuboku" "Naxçıvan" komandasına təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Muxtar respublikada dövlət icbari şəxsi sığortası sahəsi üzrə ödənişlər həyata keçirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2021-ci il 24 may tarixli Fərmanına əsasən deputatların, hərbi qulluqçuların, məhkəmə və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin həyat və sağlamlığının dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər 2022-ci il yanvarın 1-dən Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fonduna həvalə edilib.

Cari ildən başlayaraq dövlət icbari şəxsi sığortası sahəsində sığortaedənlərin təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortaedənlərin uçotunun aparılması, sığortaedən tərəfindən sığorta haqlarının sığortaçıya ödənilməsinə nəzarət, sığorta ödənişlərinin dövlət icbari şəxsi sığortası sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə verilməsi, sığorta ehtiyatlarının yaradılması fond tərəfindən həyata keçirilir.

Qanunvericiliyə uyğun olaraq 2022-ci il yanvarın 1-dən sonra baş vermiş sığorta hadisələrinə fond tərəfindən baxılır. Belə ki, icbari şəxsi sığorta ödənişlərini almaq üçün müraciət etmiş şəxslərə ödənişlər həyata keçirilir və qanunla müəyyən edilmiş məbləğdə vəsaitlərin həmin şəxslərin bank hesabına köçürülməsi təmin edilir.

Məlumat üçün bildirək ki, sığortaolunanlara dövlət icbari şəxsi sığortası hər il dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Deputatlar, həmçinin məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşları 5 illik əməkhaqqı miqdarında sığorta olunur. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası isə 11 min manat məbləğində həyata keçirilir. Deputatlara fərdi qəza zamanı, məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarına xidmətdə olduğu zaman, hərbi qulluqçulara isə hərbi xidmətdə olduğu zaman həlak olduqda, yaxud alınmış xəsarət və ya xəstəliklə əlaqədar üç il müddətində vəfat etdikdə 100 faiz, I dərəcə sağlamlıq imkanları məhdudluq yarandıqda 80, II dərəcə sağlamlıq imkanları məhdudluq yarandıqda 60, III dərəcə sağlamlıq imkanları məhdudluq yarandıqda isə 40 faiz həcmində sığorta ödənişi verilir. Həmçinin sığortaolunana aldığı xəsarət növlərinə uyğun olaraq qanunvericilikdə müəyyən olunmuş faiz miqdarında sığorta ödənişi verilir. Hərbi qulluqçulara ağır xəsarət aldıqda sığorta ödənişinin 25, az ağır xəsarət aldıqda 15, yüngül xəsarət aldıqda isə 5 faizi miqdarında sığorta ödənişi verilir. Məhkəmə və hüquq-mühafizə orqanlarının əməkdaşlarına isə ağır xəsarət aldıqda 20, az ağır xəsarət aldıqda 15, yüngül xəsarət aldıqda isə 10 faiz miqdarında sığorta ödənişi ödənilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Ötən ay muxtar respublika muzeylərinə 175 yeni eksponat təqdim olunub



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabe müəssisələr tərəfindən aprel ayında da müxtəlif səpkili tədbirlər keçirilmişdir.*

Mədəniyyət və Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən məktəblilərin dram, milli musiqi və rəqs müsabiqələrinin yekununa həsr olunmuş tədbirlər keçirilmiş, qaliblər mükafatlandırılmışlar. Ötən ay Ordubad, Culfa və Şərur Rayon Tarix-Diyarşünaslıq muzeylərinin 40 illiyi qeyd edilmiş, muzeylərə yeni eksponatlar hədiyyə olunmuşdur. Hesabat dövründə "Yallı (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsi üzrə Reprezentativ Siyahısı"na daxil edilməsi haqqında sertifikatın təqdimat mərasimi keçirilmiş, həmçinin Azərbaycan Respublikası Baş nazirinin müvafiq qərarı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilmişdir.

Nazirliyin hamiliyinə verilmiş Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan Dövlət Universitetinin müvafiq ixtisasları üzrə təhsil alan tələbələri üçün kitab müzakirələri keçirilmiş, açıq dərslər təşkil edilmiş, mühazirələr oxunmuş, film nümayişi olmuşdur. Həmçinin Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsinin nazirliyin sistemində olan muzeylərdə və kitabxanalarda təcrübə keçmələri təmin edilmişdir. Ay ərzində muxtar respublikanın muzeylərini 43 min 598 yerli, 4 min 544 əcnəbi olmaqla, ümumilikdə, 48 min 142 tamaşaçı ziyarət etmiş, muzeylərə 175 yeni eksponat daxil olmuşdur.

Hesabat ayında muxtar respublikanın ümumtəhsil məktəbləri ilə C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi arasında "Azərbaycanın görkəmli ədibləri" mövzusunda interaktiv dərs keçilmişdir. Ay ərzində "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 116-cı ildönümü münasibətilə Cəlil Məmmədquluzadənin Naxçıvan şəhərindəki ev, Nehrəm qəsəbəsindəki və Cəlilkənddəki Xatirə muzeylərində tədbirlər olmuş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində dəyirmi masa təşkil edilmişdir. Ötən ay muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri üçün muzeylərdə, ümumilikdə, 46 açıq dərs keçilmiş, 14 mühazirə oxunmuşdur. Muzeylər tərəfindən şəhidlərimizin doğum və anım günləri, əlamətdar və tarixi günlər, tanınmış şəxsiyyətlərlə bağlı və digər bu kimi mövzularda 330 sayda material hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

Ötən ay kitab müzakirələri davam etdirilmişdir. "Mütaliə", "Nağıl", "Kitabxanaçı", "Ktabxana", "Oxucu" və "Nağıl" günləri ilə bağlı muxtar respublikanın kitabxanaları tərəfindən 136 tədbir keçirilmiş, həmçinin sağlamlıq imkanları məhdud 33 uşağa səyyar kitabxana xidməti göstərilmişdir. Aprel ayında muxtar respublikanın kitabxanalarına 341 adda 443 nüsxə çap məhsulu daxil olmuşdur. Həmçinin kitabxanalara 1015 yeni oxucu müraciət etmiş, oxucu gəlişi 8 min 719, kitab verilişi isə 49 min 39 nüsxə olmuşdur. Bundan başqa, ötən ay elektron kataloqa 714 adda kitab işlənərək elektron kataloqdakı kitabların sayı 31 min 723-ə, şəbəkəyə işlənmiş (PDF) kitabların sayı isə 3 min 823-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan, ümumilikdə, 686 oxucu istifadə etmişdir.

"Milli dəyərlərimiz folklorumuzda" adlı səhnəciklərin nümayişi müsabiqəsi keçirilmiş, müsabiqədə Naxçıvan Şəhər, Şərur, Culfa, Babək, Ordubad və Şahbuz Rayon Mədəniyyət saraylarında kollektivlər tərəfindən səhnəciklər nümayiş olunmuşdur. Naxçıvan Dövlət Film Fondu tərəfindən görkəmli kino xadimləri, dünya və Azərbaycan kinosunun inciləri haqqında, film çəkilişlərindən maraqlı faktlarla bağlı paylaşımlar edilmiş, film nümayişi həyata keçirilmişdir. Ay ərzində filmlərin nömrələnməsi, pasportlarının yenilənməsi və lentlərin təmizlənməsi işləri davam etdirilmişdir. "Keçmişdən soraq, gələcəyə səsləniş" mövzusunda qısametrajlı filmlər müsabiqəsinin keçirilməsi ilə əlaqədar olaraq muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində seminarlar təşkil edilmişdir.

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında İ.Əfəndiyevin "Xurşidbanu Natəvan", H.Cavidin "Topal Teymur", M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Ş.Perronun "Çəkməli Pişik", Naxçıvan Dövlət Uşaq Teatrında isə C.Məmmədquluzadənin "Saqqallı uşaq" əsərləri əsasında səhnələşdirilən tamaşaların məşqləri aparılmışdır. Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivləri 23-24 aprel tarixlərdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Kətə" festivalında konsert proqramı ilə çıxış etmişdir. Aprel ayında nazirliyin Gənclər Təşkilatının üzvləri və Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinin iştirakı ilə "Yaşa və öyrən – Bahariyyə" intellektual bilik yarışı keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Cəlilkəndində yaşamış Fərzəliyev İbrahim İsmayıl oğlunun adına olan JN-155A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

İsmayılzadə Kənan Cəfər oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən 2007-ci ildə verilmiş BN-088766 nömrəli diplom itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, M.Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi tərəfindən Əhmədov Zaur Kamal oğlunun adına 2 iyun 1990-cı ildə verilmiş BT-019811 seriya nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Mirzəyev Vüqar Vilayət oğlunun adına olan Naxçıvan şəhəri, 7-ci məhəllə, ev 4 ünvanında yerləşən torpaq sahəsinə dair AA-001955 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Hümbətov Hümbət Əli oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 435**